Kart Təhlükəsizliyi

Rabitəbank

Kart məlumatlarının təhlükəsizliyi

- Kartın şəklini çəkmək qəti qadağandır;

  Kartın şəklini telefonda saxlamaq qəti qadağandır;

- Kartın şəklini hər hansı şəxsə göndərmək qəti qadağandır;
- Kartın CVV kodunu digər ünvanlara göndərmək qəti qadağandır;
- Kartın üzərində qeyd edilən nömrəni isə pul göndərilməsi üçün göndərmək olar;
- Kartdan istifadə zamanı bank tərəfindən və ya banka bağlı digər qurum tərəfindən göndərilən bir dəfəlik şifrələrin (OTP və 3DS) göndərilməsi qəti qadağandır;
- Karta məxsus PİN-kodu digər şəxslərə bildirmək qadağandır.

Yuxarıda göstərilənlərdən hər hansı biri baş veribsə, dərhal aşağıdakı nömrələrlə əlaqə saxlayıb, kartınızı bloklayın.

- Azəricard (012) 194; (kart nömrəsini, kod sözünüzü təqdim etməklə)
- 133 Rabitəbank Çağrı Mərkəzi (Şəxsiyyət vəsiqəsinin məlumatlarını və kod sözünüzü təsdiq etməklə)
- Rabitəbanka məxsus xidmət mərkəzləri vasitəsilə (Şəxsiyyət vəsiqəsini təqdim etməklə)
- Rabitəbank Mobil applikasiyatətbiqi, İnternet Banking və ya Rabita Bot vasitəsilə kartınızı bloklayın.

Kartdan təhlükəsiz istifadə qaydaları:

- Kartınızla gerçəkləşdirilən icazəsiz əməliyyatlardan vaxtında xəbərdar olmaq üçün SMS və Mobil Bankçılıq xidmətlərindən istifadə edin. Bu cür əməliyyatlar baş verərsə, kartınızı dərhal bloklaşdırın və araşdırılması üçün banka müraciət edin;

- Kart itirildiyi və ya oğurlandığı halda mütləq bloklaşdırılmalıdır
(yuxarıda qeyd olunan vasitələin köməyi ilə);

- İctimai yerlərdə quraşdırılmış bankomatlardan istifadə etməyə üstünlük verin. Məsələn, dövlət idarələri, bank filialları, böyük ticarət kompleksləri. Bankomatın klaviaturasının və ya kart qəbuledicisinin üzərində əlavə avadanlıqlar quraşdırılıbsa, həmin bankomatdan istifadə etməyin. Əməliyyat apararkən bank əməkdaşları da daxil olmaqla, kənar şəxslərin köməyini qəbul etməyin;

- POS-terminallarda və ATM-də ŞEN kod daxil edilərkən kənar şəxslərin görməməsi təmin edilməlidir. Məsələn, bir əlinizlə kod daxil edərkən digər əlinizlə kodun görünməməsini təmin edin;

- Kart məlumatlarını yalnız tanınmış sertifikasiya mərkəzləri tərəfindən imzalanmış, SSL sertifikatlarla mühafizə olunmuş internet səhifələrində daxil edin. Onlayn ödənişləri şəxsi kompüterinizdən edin;

Kartın təhlükəsiz saxlanması qaydaları:

- Heç vaxt kartı və kart məlumatlarını - kart nömrəsi, istifadə müddətinin bitmə tarixi, CVV və ŞEN kodları üçüncü səxslərə, həttayaxın qohumlarınıza da verməyin;

- ŞEN kodu kartla bir yerdə saxlamayın, kartın üstündə və ya mobil telefonunuzda yazmayın. ŞEN kodu yadda saxlamağa çalışın və ya sizin kartınız bu xidməti dəstəkləyirsə, Mobil tətbiq vasitəsilə "PİN SET" xidmətindən yararlanıb, sizə uyğun olan kodu seçə bilərsiniz; PİN-kodu təyin edərkən asan yadda qalan rəqəmlərdən istifadə etməyin: 1111, 2222 və ya ad günləri və s. kimi.

- Kartın saxlandığı şəraitlərə qarşı diqqətli olun. Kart mexaniki, temperatur və elektromaqnit təsirlərdən qorunmalı, rütubətdən uzaq saxlanılmalıdır. Ödəniş kartını mobil telefon, məişət və ofis avadanlığı ilə yanaşı saxlamaq olmaz.